Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 47 (22.958)

10 mart 2018-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 9-da Gürcüstanın müdafiə naziri Levan İzorianı qəbul edib.

Dövlətimizin başçısı ölkələrimiz arasında siyasi münasibətlərin uğurla inkişaf etdiyini bildirib, müxtəlif sahələrdə, o cümlədən hərbi sahədə əməkdaşlığımızın uzun illər müvəffəqiyyətlə inkişaf etdiyini vurğulayıb.

Gürcüstanın müdafiə naziri Levan İzoria Gürcüstan xalqının dövlətimizin başçısına şəxsən hörmətini bir daha ifadə edərək ölkələrimiz arasında əlaqələrin uğurlu inkişafında Prezident İlham Əliyevin böyük xidmətlərinin olduğunu qeyd edib.

Azərbaycan ilə Gürcüstan arasında iqtisadi, energetika, nəqliyyat sahələrində uğurlu qarşılıqlı fəaliyyətin olduğunu bildirən dövlətimizin başçısı ölkələrimizin həyata keçirdiyi qlobal layihələrin əhəmiyyətini diqqətə çatdırıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 9 mart tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yaradılmasının 26-cı ildönümü ilə əlaqədar olaraq, dövlətin ərazi bütövlüyünün təmin olunmasında iştirak etdiklərinə, döyüş zamanı igidlik göstərdiklərinə, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə bir qrup hərbi qulluqçu təltif edilmişdir. Təltif olunanlar arasında Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının hərbi qulluqçusu da vardır.

Tarışov Elnur Aydın oğlu – mayor

"Hərbi xidmətlərə görə" medalı ilə təltif edilmişdir.

İməciliklər ekoloji mühitin inkişafında mühüm rol oynayır

"Təbii sərvətlərə qayğı ilə yanaşılması, planetin genofondunun qorunması, ekoloji sağlamlıq və digər qlobal problemlər ayrılıqda hər bir dövləti ciddi düşündürsə də, onları yalnız birgə səylərlə həll etmək mümkündür". Xalqımızın ümummilli lideri Heydər Əliyevin ətraf mühitin mühafizəsi və ekoloji problemlərin həlli ilə bağlı dediyi bu fikirlər təbiətə qlobal yanaşmanı ortaya qoymaqla yanaşı, hər bir ölkə üçün də ayrılıqda ümumi tezis kimi dəyərlidir. Məhz ulu öndərin strateji istiqamət kimi qarşıya qoyduğu ekoloji problemlərin həlli məsələləri ölkəmizdə ətraf mühitin mühafizəsində böyük rol oynamışdır. Dahi şəxsiyyətin hələ ölkəmizə rəhbərliyinin birinci dövründə bu sahədə kompleks tədbirlər həyata keçirilmiş, respublikamızın bütün bölgələrində yaşıllaşdırma işləri geniş vüsət almışdır. Müstəqillik illərində də ümummilli liderimizin təşəbbüsü ilə ekoloji siyasət uğurla davam etdirilmiş, yüz min hektarlarla yeni yaşıllıq zolaqları salınmış, bu sahədə zəngin qanunvericilik bazası yaradılmışdır. Azərbaycan Respublikasının Konstitusiyasında təbiətin mühafizəsi, təbii sərvətlərdən xalqımızın rifahının yaxşılaşdırılması məqsədilə səmərəli istifadə olunması öz əksini tapmışdır. "Ekoloji təhlükəsizlik haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının qanunları da təbiətin qorunması, ekoloji mühitin saflaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Ekoloji problemlərin həlli, ətraf mühitin qorunması, təbiətin zənginləşdirilməsi Naxçıvan Muxtar Respublikasında da diqqət mərkəzində saxlanılır. Ötən əsrin sonlarına doğru muxtar respublikanın blokadaya salınması bir çox sahələrlə yanaşı, regionun ekoloji vəziyyətinə də mənfi təsir göstərmişdir. Paytaxtla nəqliyyat əlaqələrinin kəsilməsi muxtar respublikada yanacaq qıtlığına səbəb olmuşdur ki, bu da sonda yaşıllıqların məhv edilməsi ilə nəticələnmişdir. Həmin dövrdə ulu öndər Heydər Əliyevin Moskvadan Bakıya, oradan isə Naxçıvana qayıdışı və bu qədim diyarda yaşayıb fəaliyyət göstərməsi digər sahələrdəki problemlərin həlli ilə yanaşı, təbiətə münasibəti də köklü surətdə dəyişmişdir. 1990-1993-cü illərdə – görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində olduğu dövrdə muxtar respublikada ilk dəfə olaraq yaşıllaşdırma tədbirlərində kompleks yanaşmaya – iməciliklərə start verilmişdir. Qeyd etmək lazımdır ki, muxtar respublika ərazisində dağlıq relyefin həcminin böyük olması, ərazinin sərt kontinental iqlimə malikliyi Naxçıvanda yaşıllıqların salınması və mühafizəsini ölkənin digər regionları ilə müqayisədə daha da çətinləşdirir. Ancaq buna baxmayaraq, diyarın zəhmətkeş insanlarının əməyi sayəsində ötən dövrdə burada görülmüş işlər, sözün əsl mənasında, Naxçıvanı yaşıllıqlar diyarına çevirmişdir. Nəticədə, muxtar respublikada yaşıllıqların həcmi ötən əsrin sonları ilə müqayisədə 12 faizdən çox artmışdır. Təbii ki, bu, son nəticə deyil. Hər il muxtar respublikada orta hesabla 500 hektara yaxın ərazidə yeni yaşıllıqların salınması, mövcud yaşıllıqların bərpası istiqamətində görülən işlər regionda yeni ekoloji mühitin yaradılmasına, eyni zamanda yaşıllıqların həcminin artmasına öz töhfəsini verir.

Qeyd edək ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş ekoloji siyasət muxtar respublikada mühüm istiqamət kimi qəbul olunub. Nəzərə alaq ki, yeni yaşıllıqların, meşə massivlərinin salınması zamanı bəzən ərazi və iqlim uyğunluğu baxımından çətinliklərlə qarşılaşılır. Bu proses, həmçinin praktik baxımdan böyük texniki layihələrin həyata keçirilməsindən də çətindir. Çünki istənilən layihəni yerinə yetirmək üçün əgər maliyyə imkanları varsa, müəyyən müddətdə başa çatdırmaq mümkündür. Yaşıllıq sahələrinin yaradılmasına isə təkcə maliyyə resursları kifayət etmir, zəhmətkeşlik, qayğı, səbir, təbii təsirlərdən qorumaq kimi vasitələr ön plana keçir.

Məsələnin digər tərəfi isə ondan ibarətdir ki, bu tədbirlərin həyata keçirilməsində inzibati metodlardan istifadəyə yer verilmir. Muxtar respublika rəhbərinin ağac əkini kampaniyalarında şəxsi nümunə göstərməsi, ümumiyyətlə isə ekoloji tədbirlərdə yaxından iştirak etməsi bu tədbiri ümumxalq işinə çevirməklə yanaşı, regionda ekoloji mədəniyyətin formalaşmasına da mühüm təsir göstərib.

Vurğulamaq lazımdır ki, muxtar respublikada həyata keçirilən ekoloji tədbirlərdə ümumxalq iməciliklərinin müstəsna əhəmiyyəti var. Mövsümə uyğun olaraq hər il keçirilən yaz və payız iməciliklərində muxtar respublikamızın müxtəlif bölgələrində yeni yaşıllıqlar salınır, növbəti mərhələlərdə isə mövcud yaşıllıq zolaqlarına aqrotexniki qulluq göstərilir, bərpa işləri aparılır. Salınan yaşıllıq zonalarında müxtəlif meyvə tinglərinə üstünlük verilməsi isə ekoloji tarazlığın qorunması ilə bərabər, görülən işlərin iqtisadi səmərəliliyini də ön plana çıxarır. Əvvəlki illərdə yüzlərlə hektar ərazidə salınmış meyvə bağları indi əldə olunan bol məhsulun əsasını təşkil edir.

Ötən şənbə günündən isə muxtar diyarımızda 2018-ci ilin ilk iməciliyinə start verilib. Həmin gün muxtar respublikada keçirilən iməciliklərdə 23 minə yaxın adam iştirak edib, 10 mindən artıq meyvə tingi, 2500 meşə ağacı, 2100 gül və bəzək kolu əkilib. Əvvəlki illərdə olduğu kimi, bu il də əkilən hər bir ağac torpaqlarımızın yaşıl bəzəyinə çevrilməklə, həm də zəhmətkeş insanların ana təbiətə sevgisini tərənnüm edir.

✍ **Səbuhi HƏSƏNOV**

Muxtar respublikada həyata keçirilən sosial-iqtisadi islahatların səmərəliliyi əhalinin yaşayış səviyyəsinin yüksəldilməsini təmin etməklə yanaşı, demoqrafik proseslərə də müsbət təsir göstərmişdir.

Muxtar respublikada əhali artımı davam edir

1 yanvar 2018-ci il tarixə muxtar respublikada əhalinin sayı 2007-ci ilin sonu ilə müqayisədə 60 min 994 nəfər artaraq 452 min 831 nəfər olmuşdur. Əhalinin 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil etmişdir. Əhalinin 29,5 faizi şəhər, 70,5 faizi isə kənd yerlərində yaşayır. Muxtar respublikada bir kvadratkilometrə düşən əhalinin sayı 82 nəfər olmuşdur ki, bu da 2007-ci ilin sonu ilə müqayisədə 11 nəfər çoxdur. Əhalinin ən sıx məskunlaşdığı yer Naxçıvan şəhəridir, bir kvadratkilometrə 485 nəfər düşür.

2017-ci ildə muxtar respublikada 5681 nəfər doğum qeydə alınmış, doğulanların 2899 nəfərini və ya 51 faizini oğlanlar, 2782 nəfərini və ya 49 faizini isə qızlar təşkil etmişdir. Doğulanlardan 61-i əkiz, 1-i isə üçəm olmuşdur. 2017-ci ildə muxtar respublikada doğulan oğlanlarda Yusif, Əli, Məhəmməd, Hüseyn və Uğur, qızlarda isə Zəhra, Fatimə, Zeynəb, Damla və Məryəm adları üstünlük təşkil etmişdir. Ümumilikdə, son 10 ildə muxtar respublikada 81 min 807 nəfər uşaq doğulmuşdur.

2017-ci ildə muxtar respublikada 2562 nikah bağlanmış, nikaha girənlərdə orta yaş həddi kişilərdə 28 yaş, qadınlarda isə 23,7 yaş təşkil etmişdir. 2008-ci ildən 1 yanvar 2018-ci il tarixə muxtar respublikada 31 min 675 nikah qeydə alınmışdır.

Əhali sağlamlığının və rifahının davamlı yüksəlişi, tibbi xidmətlərin keyfiyyətinin və əhatəliliyinin artırılması ölüm, o cümlədən 1 yaşa qədər ölən uşaqların say göstəricisini aşağı salmışdır. Əgər 2007-ci ildə ölüm göstəricisi əhalinin hər min nəfər hesabı ilə 5,3 nəfər olmuşdursa, hazırda bu göstərici 4,4 nəfər təşkil edir. Hər min nəfər doğulana hesabı ilə 1 yaşa qədər ölən uşaqların sayı 2007-ci ildə 2,5 nəfər qeydə alındığı halda, 2017-ci ildə bu göstərici 1,6 nəfər olmuşdur.

1 yanvar 2018-ci il tarixə muxtar respublikada gənclərin sayı 139 min 472 nəfərə çatmışdır ki, bu da ümumi əhalinin 30,8 faizini təşkil edir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ***"Dövlətimizin ən qiymətli incisi onun vətəndaşlarıdır"*** prinsipi əsas götürülərək muxtar respublikada əhalinin səmərəli məşğulluğu, sosial müdafiəsinin gücləndirilməsi istiqamətində və səhiyyə sahəsində həyata keçirilən tədbirlərin effektivliyi əhali artımını təmin etmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti

Naxçıvan şəhərində quruculuq işləri aparılır

Son illər muxtar respublikamızda xeyli sayda yaşayış binası inşa edilib ki, bu da sakinlərin mənzil-məişət şəraitinin yaxşılaşmasına, sosial rifah halının yüksəlməsinə imkan verib. Ümumiyyətlə, muxtar respublikada əhalinin mənzil şəraitinin yaxşılaşdırılması sahəsində həyata keçirilən tədbirlər üç mərhələdə aparılır. İlk növbədə, qayğıya ehtiyacı olan vətəndaşlar mənzil və fərdi yaşayış evləri ilə təmin olunurlar. İkinci mərhələdə mövcud yaşayış binaları yenidən qurularaq sakinlərin istifadəsinə verilir. Üçüncü mərhələdə isə qəzalı vəziyyətdə olan yaşayış binaları sökülərək yerində yeni yaşayış binaları tikilir. Həyata keçirilən bu tədbirlər dövlətimizin vətəndaşlara göstərdiyi qayğının parlaq ifadəsidir.

Naxçıvan şəhərinin Heydər Əliyev prospektində inşa olunan yeni yaşayış binası da gələcəkdə sakinləri yüksəkkeyfiyyətli rahat mənzillərlə təmin edəcək. Ötən ilin oktyabr ayından tikintisinə başlanılan binanın təməli atılıb, zirzəmi hissəsinin beton-qəlib işləri görülür. 4 giriş və 6 mərtəbədən ibarət olacaq binanın tikintisini "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları həyata keçirirlər. Layihəyə əsasən yaşayış binasında lift quraşdırılacaq. Zirzəmidə 29 yerlik avtomobil dayanacağı yaradılacaq, birinci mərtəbədə 12 mağaza istifadəyə veriləcək. İnşası aparılan obyektdə kifayət qədər işçi qüvvəsi çalışır. Tikintidə, əsasən, yerli inşaat materiallarından istifadə edilir, keyfiyyət amilinə xüsusi önəm verilir. İnşaatçılar geyim formaları və lazım olan avadanlıqlarla təmin olunublar.

Genişmiqyaslı quruculuq tədbirlərindən Naxçıvan şəhərinin "Azərbaycan" küçəsinə də pay düşüb. Belə ki, ötən ilin oktyabr ayından etibarən burada mövcud olan inzibati bina Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyi üçün yenidən qurulur. Zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan binada son tamamlama işləri görülür. Hazırda binanın qapıları salınır, daxili hissədə dekorativ işlər aparılır. Binanın həyətində abadlıq işləri görülür, gülkarlıqlar yaradılır. Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Babək Rayon İdarəsinin inşaatçıları tərəfindən həyata keçirilən tikinti işlərində texniki təhlükəsizlik qaydalarına ciddi əməl olunur.

✍ **Nail ƏSGƏROV**

Naxçıvanda İranın Qərbi Azərbaycan Vilayətində istehsal olunan ərzaq məhsulları və əl işlərinin sərgi-satışı keçirilir

Martın 8-də Naxçıvan şəhərində İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayətində istehsal edilən ərzaq məhsulları və əl işlərinin sərgi-satışının açılışı olmuşdur.

Əvvəlcə "Qurani-Kərim"dən ayələr oxunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Azər Zeynalov çıxış edərək tədbir iştirakçılarını və qonaqları salamlamış, sərginin açılışı münasibətilə onları təbrik edərək demişdir: Hər iki ölkə Prezidentinin siyasi əlaqələrin inkişafına göstərdiyi böyük diqqətin nəticəsidir ki, Azərbaycan Respublikası ilə İran İslam Respublikası, eləcə də Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın yaxın vilayətləri arasında iqtisadi əlaqələr genişlənmiş, müxtəlif sahələr üzrə ikitərəfli münasibətlər qurulmuş, gediş-gəliş artmış və insanlarımız daha da yaxınlaşmışdır.

Qeyd olunmuşdur ki, son illər Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın yaxın vilayətləri arasında nümayəndə heyətlərinin qarşılıqlı səfərləri, birgə görüşlərin, biznes forumların və sərgi-satışların təşkili ənənə halını almışdır. Bir neçə gün bundan əvvəl İranın Qərbi Azərbaycan Vilayətinin Urmiya şəhərində Naxçıvanda istehsal olunan məhsulların, bu gün isə Naxçıvan şəhərində İranda istehsal edilən ərzaq məhsulları və əl işlərinin sərgi-satışının təşkil olunması da ölkələrimiz arasındakı mövcud siyasi-iqtisadi əlaqələrin inkişafının daha bir göstəricisidir.

Ali Məclis Sədrinin birinci müavini sərginin təşkilatçılarına təşəkkürünü bildirmişdir.

Tədbirdə İran İslam Respublikasının Naxçıvandakı Baş konsulu Mənsur Ayrom və Qərbi Azərbaycan Vilayəti valisinin müavini Əlirza Radfər çıxış edərək Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasının yaxın vilayətləri arasındakı əlaqələrdən danışmış, ikitərəfli münasibətlərin getdikcə daha da genişləndirildiyini bildirmişlər. Çıxış edənlər sərginin təşkilində göstərilən köməkliyə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıq etmişlər.

Sonra sərginin açılışını bildirən lent kəsilmişdir.

Martın 11-dək davam edəcək sərgiyə İranın Qərbi Azərbaycan Vilayətindən 17-yə yaxın şirkətin istehsal etdiyi məhsullar çıxarılıb.

"Şərq qapısı"

Hər bölgəsi çiçəklənən bir diyardan soraq verən doğma Naxçıvanımızın 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı və ölkəmizin Gənclər Paytaxtı statusunu daşıması, ötən ilin muxtar respublikada uğurla başa vurulması sevincimizin üstünə daha bir sevinc gətirib. Paytaxt şəhərimizdən tutmuş rayon mərkəzlərinə, ən ucqar dağ və sərhəd yaşayış məntəqələrinədək yeniliyə qovuşan regionumuz bu gün ayrı büsatdadır. Şərur rayonunda da quruculuq işlərinin, abadlıq tədbirlərinin həcmi daha da artıb. İqtisadiyyatda böyük uğurlar qazanılıb. Həyatın bütün sahələrində əldə edilən nailiyyətlər insan amilinə göstərilən qayğının ifadəsi kimi dəyərləndirilib. Fikirlərimizə 2017-ci ilin timsalında aydınlıq gətirmək istədik. Üz tutduq Şərura.

İnkişaf edən bölgələrimiz

Yurd yerinə bağlılığın, sabaha cavabdehlik hissinin, insanlara qayğı amalının ünvanlarından biri

ŞƏRUR

Müasirləşmədə başlıca amillərdən biri quruculuq tədbirləridir

Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə, ötən il iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 77 milyon 563 min manat vəsait yönəldilib. Tikinti-quraşdırma işlərinə qoyulan investisiyanın dəyəri 1,4 faiz artaraq 73 milyon 571,2 min manat olub.

Bu dövrdə, ənənəvi olaraq, təhsil sahəsi diqqət mərkəzində saxlanılıb. Belə ki, Şərur şəhərində 1020 şagird yerlik 2 nömrəli, Çəmənli kəndində 380, Qarahəsənli və Ələkli kəndlərinin hər birində 234, Ərəbyengicədə 192 şagird yerlik tam orta məktəb binaları istifadəyə verilib. Kənd və xidmət mərkəzlərinin tikintisi diqqətdə saxlanılıb, Arpaçayda, Ərəbyengicədə, Qarahəsənlidə kənd və xidmət mərkəzləri, Ələklidə xidmət mərkəzi və mərasim evinin tikintisi başa çatdırılaraq istifadəyə verilib. Bundan başqa, Ələklidə musiqi məktəbi və Ərəbyengicədə həkim ambulatoriyası üçün yeni binalar inşa olunub.

Rayon Mərkəzi Xəstəxanasında, Şərur şəhərindəki Heydər Əliyev prospektində yerləşən 35 nömrəli 60 mənzilli yaşayış binasında və Dəmirçi kəndində futbol meydançasında əsaslı təmir və yenidənqurma işləri aparılıb.

Hazırda Yengicə kəndindəki qədim hamam binası, Şərur şəhərində Tarix-Diyarşünaslıq Muzeyi və Qarxun kəndi ərazisində Daxili Qoşunlar üçün nəzərdə tutulmuş infrastruktur binalarında tikinti və yenidənqurma işləri davam etdirilir.

Həyata keçirilən quruculuq tədbirlərində rayon Yol Təmir-Tikinti İdarəsi inşaatçılarının da böyük əməyi olub. Belə ki, 5,3 kilometr uzunluğunda Ələkli, 2,9 kilometr məsafədə Qarahəsənli kənd avtomobil yoluna, 9,7 kilometr uzunluğunda Dərvişlər, Arpaçay, Çəmənli və Babəki kəndlərini birləşdirən avtomobil yollarına, Aşağı Aralıq və Yuxarı Aralıq kəndlərini, 10,8 kilometr məsafədə Vərməziyar-İbadulla-Qışlaqabbas-Ərəbyengicə kəndlərini birləşdirən avtomobil yollarına isə asfalt örtüyü salınıb. Ümumilikdə, 2017-ci ildə kənd yaşayış məntəqələrinin avtomobil yollarında 22,2 kilometr uzunluğunda asfaltlama işləri aparılıb. 13,7 kilometr uzunluğunda əsaslı, 8,5 kilometr uzunluğunda kəndarası, 24,2 kilometr uzunluğunda isə kənddaxili yollarda cari təmir işləri həyata keçirilib.

Bölgədə elektrik enerjisi ilə təchizat sahəsində də müəyyən işlər görülüb. Belə ki, 26 transformator əsaslı, 70 transformator cari təmir olunub, müxtəlif gücə malik 3 yeni transformator, 505 mənzilə yeni sayğac quraşdırılıb. Qaz İstismar İdarəsi tərəfindən il ərzində 150 abonentə və 15 qeyri-yaşayış sahəsinə yeni qaz xətti çəkilib, 125 qaz sayğacı yenisi ilə əvəz edilib.

Bəhs olunan dövrdə rayonun Ələkli, Çəmənli, Arpaçay, Qarahəsənli kəndlərində aparılan abadlıq işlərinə uyğun olaraq rabitə şəbəkəsi tamamilə yenidən qurulub və bir sıra kəndlərdə köhnətipli ATS-lər yeniləri ilə əvəz olunub. Həyata keçirilən tədbirlər sayəsində kənd ATS-nin tutumu 704 ədəd artaraq 16996-ya çatdırılıb.

Aydındır ki, bölgədə həyata keçirilən tədbirlər tikinti-quruculuq işləri ilə məhdudlaşmayıb. Müxtəlif sahələrin inkişafına göstərilən dövlət qayğısı həmin sahələrdə də yeniləşməni daha yüksək müstəviyə çıxarıb.

Ərzaq təhlükəsizliyi yerli məhsullar hesabına təmin olunur

Şərurun iqtisadiyyatında taxılçılıq mühüm yer tutur. Bölgənin məhsuldar torpaq sahələri, uzun illərin təcrübəsi və yaradılan şərait bu sahənin inkişafına marağı getdikcə artırır. Bu səbəbdəndir ki, ötən il də taxılçılıqda yüksək göstəricilərə nail olunub. Belə ki, 3598 hektar sahədən 11 min 467 ton buğda, 546 hektar sahədən 1704 ton arpa tədarük edilib. Cari ilin məhsulu üçün ötən ilin payızında 4008 hektar sahədə dən üçün payızlıq səpin aparılıb. Bunun 3602 hektarı buğda, 406 hektarı isə arpadır.

İkinci çörək sayılan kartofun əkilib-becərilməsinə də ciddi önəm verilib. Bəhs olunan dövrdə 1064 hektar kartof əkini sahəsindən 15 min 889 ton kartof tədarük edilib.

Bostan məhsullarının əkilib-becərilməsinə üstünlük verilən bölgədə torpaq mülkiyyətçiləri 475 hektar bostan bitkiləri əkini sahəsindən 6536 ton bostan məhsulları yığıblar.

Muxtar respublikamızda meyvəçiliyin və tərəvəzçiliyin inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramından irəli gələn vəzifələrin yerinə yetirilməsi də diqqətdə saxlanılıb. Belə ki, torpaq mülkiyyətçiləri və sahibkarlar 1814 hektar tərəvəz bitkiləri əkini sahəsindən 33 min 645,3 ton tərəvəz məhsulları, barverən meyvə bağlarından 20 min 940,4 ton, üzüm bağlarından 1532 ton məhsul tədarük ediblər.

Onu da qeyd edək ki, rayonda son illər arıçılığa da maraq xeyli artıb. Bu səbəbdəndir ki, ötən il bölgədə 182 ton bal istehsal olunub. Balıqçılıqla məşğul olan müəssisələr tərəfindən isə 2017-ci ildə 162 min manat dəyərində balıq satılıb. Bu da əvvəlki illə müqayisədə xeyli çoxdur.

Ümumilikdə, 2017-ci ildə rayonun kənd və balıqçılıq təsərrüfatlarında 140477,2 min manatlıq məhsul istehsal olunub ki, bu da əvvəlki illə müqayisədə 3,5 faiz çoxdur. Bu da stimullaşdırıcı tədbir kimi vurğulanmalıdır ki, il ərzində kənd təsərrüfatı məhsulları istehsalçılarına 556 min 670 manat məbləğində yardım, güzəştli şərtlərlə 1182 ton gübrə verilib.

Məlumat üçün qeyd edək ki, bəhs olunan dövrdə yeni istehsal və emal müəssisələrinin yaradılması davam etdirilib, rayonun Yengicə kəndində 1 quşçuluq, Şahbulaq kəndində 1 arıçılıq, Dərvişlər, Kürçülü, Axura, Danyeri kəndlərinin hər birində 1 heyvandarlıq təsərrüfatı, Şərur şəhərində isə 1 un məmulatları sexi yaradılıb. Bu isə bölgədə sahibkarlığın inkişafına diqqət göstərilməsinin ifadəsidir.

Əhalinin sosial müdafiəsinin gücləndirilməsi davamlı xarakter alıb

Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi tərəfindən ünvanlı sosial yardım alan 265 ailənin 975 nəfərinə 507 min 134 manat vəsait ödənilib. "Şəhid ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanına uyğun olaraq 54 şəhid ailəsinə 114 min 951 manat Prezident təqaüdünün ödənişi təmin edilib. 60 təqaüdçü Azərbaycan Respublikasının müxtəlif sanatoriyalarına göndərilib. 1 oktyabr Ahıllar günü münasibətilə qeydiyyatda duran 64 nəfər ahıl vətəndaşa isə ərzaq yardımı, sağlamlıq imkanları məhdud 14 nəfərə əlil arabası, 1 nəfərə eşitmə aparatı, 66 nəfərə əsa, 5 nəfərə isə protez-ortopedik məmulatlar verilib.

"2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" işsizlik probleminin ortadan qalxmasına müsbət təsir göstərib. Rayon Məşğulluq Mərkəzində 2017-ci ildə 615 nəfər işaxtaran qeydiyyata alınıb. Onlardan 571 nəfəri müxtəlif sahələrdə daimi işlə təmin olunub. İl ərzində əmək yarmarkalarında 193 nəfərin istəyi reallaşıb, bölgədə aparılan tikinti-abadlıq və kənd təsərrüfatı işləri ilə əlaqədar daha 20 nəfər müvəqqəti işlə təmin olunub.

Ötən il iyun ayının 7-də Şərur rayon Olimpiya-İdman Kompleksinin foyesində rayonun istedadlı qadınlarının əl işlərindən ibarət sərgi-satış təşkil edilib. Həmin sərgidə 89 qadının 487 əl işi sərgilənərək satışa çıxarılıb. 3 gün davam etdirilən sərgi-satışdan, ümumilikdə, 2169 manatlıq vəsait əldə edilərək müəlliflərinə təqdim olunub.

Gəldiyimiz qənaət

Son 21 ildə müxtəlif dövlət proqramlarının muxtar respublikamızda ardıcıllıqla, uğurla həyata keçirilməsi, digər bölgələr kimi, bu rayona da canlanma gətirib. Bu gün Şərurda elə bir sahə yoxdur ki, orada inkişaf, dirçəliş, yüksəliş meyilləri hiss olunmasın. Təkcə Şərur şəhərinin deyil, ucqar kəndlərin belə, siması dəyişilib. Rayonun elə bir yaşayış məntəqəsi yoxdur ki, quruculuq prosesi ağuşunda görkəmini dəyişməsin, orada sosialtəyinatlı tədbirlər həyata keçirilməsin. Görülən işləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ölkəmizdə bərqərar olunmuş sabitlik və sürətli sosial-iqtisadi inkişafla əlaqələndirərək belə xarakterizə edir: ***"Bu gün ölkəmizdə aparılan uğurlu sosial-iqtisadi islahatlar bütün sahələrin inkişafına səbəb olmuşdur. Bu istiqamətdə həyata keçirilən tədbirlər muxtar respublikada da uğurla davam etdirilir... Əhalinin rahatlığı üçün lazımi şərait yaradılır, insanlar hərtərəfli qayğı ilə əhatə olunur, yeni sosial obyektlər tikilərək istifadəyə verilir, fərdi təsərrüfatların genişləndirilməsi üçün lazımi dövlət dəstəyi göstərilir. Bütün bunların həyata keçirilməsi ölkəmizdə Heydər Əliyev siyasi xəttinin uğurla davam etdirilməsinin nəticəsində mümkün olmuşdur"***.

Bölgədə həyata keçirilən tədbirlərə rayon sakinlərinin münasibətini də öyrəndim. Onların söhbətlərinin bir qəzet yazısına sığmayacağını düşünüb bir-iki əsas məqamı oxuculara çatdırmaq qərarına gəldim. Birincisi, görülən işlərə minnətdarlıq hissləri. Böyük səmimiyyətlə ifadə olunan belə hisslər təbiidir. Çünki insan uzun illər həsrətində olduğu gün-güzərana qovuşduğunu görür və dərindən dərk edir ki, bütün bunlar onun üçündür. Onun yaxşı yaşaması üçündür.

İkinci məqam mahiyyət etibarilə elə birinci məqamdan qaynaqlanır. Yəni söhbətlərdən başa düşdüm ki, həyata keçirilən tədbirlərin təməlində muxtar respublikada ulu öndər Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsi, bu siyasətə böyük sevgi və məhəbbət göstərilməsi dayanır.

Müxtəlif tarixi və əlamətdar hadisələrlə dolu olacaq 2018-ci ilin Şərurun tarixinə yeni izlər yazacağı şübhəsizdir.

Muxtar MƏMMƏDOV

Qadir İbrahim oğlu Qədirzadə

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Qadir İbrahim oğlu Qədirzadə 2018-ci il martın 8-də ömrünün 70-ci ilində vəfat etmişdir.

Qadir Qədirzadə 1948-ci il mayın 20-də Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Cəhri kəndində anadan olmuş, orta məktəbi 1966-cı ildə həmin kənddə bitirmişdir. 1967-1971-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialında ali təhsil almış və həmin təhsil ocağını fərqlənmə diplomu ilə bitirmişdir.

1971-1975-ci illərdə Cəhri kənd orta məktəbində müəllim işləyən Qadir Qədirzadə 1975-ci ildən elm sahəsində fəaliyyətə başlamış, Naxçıvan Elm Mərkəzində kiçik elmi işçi, 1979-1986-cı illərdə Arxeologiya, Etnoqrafiya və Folklor şöbəsinin, 1987-1992-ci illərdə Arxeologiya və Etnoqrafiya şöbəsinin müdiri vəzifələrində işləmişdir. 1992-2002-ci illərdə Naxçıvan Regional Elm Mərkəzində elmi işlər üzrə direktor müavini, 2003-cü ildən ömrünün sonunadək Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunda elmi işlər üzrə direktor müavini vəzifəsində çalışmışdır.

1983-cü ildə tarix üzrə fəlsəfə doktoru, 2004-cü ildə tarix üzrə elmlər doktoru elmi dərəcəsi alan Qadir Qədirzadə 2007-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

Qadir Qədirzadə etnoqrafiya üzrə tanınmış alimlərdən idi. O, bu sahədə uzunmüddətli səmərəli fəaliyyətinin nəticəsi olan çoxsaylı tədqiqatlar aparmış və Azərbaycan elminə töhfələr vermişdir. Qadir Qədirzadənin elmi fəaliyyətində etnik tarix, etnikmədəni münasibətlər, etnodemoqrafik proseslər, türk xalqları arasında etnogenetik əlaqələrin öyrənilməsi və inanclar sistemi kimi məsələlər əsas yer tuturdu.

Qadir Qədirzadə zəngin elmi yaradıcılıqla pedaqoji fəaliyyəti uğurla əlaqələndirirdi. O, uzun illər Naxçıvan Dövlət Universitetində, "Naxçıvan" Universitetində, Akademiyanın Naxçıvan Bölməsində gənc kadrların hazırlanması işində böyük əmək sərf etmişdir.

Qadir Qədirzadə 400-ə yaxın elmi-kütləvi əsərin, o cümlədən 22 kitab və monoqrafiyanın müəllifi idi. Onun 65-dən çox elmi əsəri beynəlxalq jurnallarda nəşr olunmuşdur. Fəaliyyəti dövründə müxtəlif ölkələrdə keçirilən beynəlxalq səviyyəli simpozium, qurultay, konfrans və digər elmi məclislərdə Azərbaycan elmini layiqincə təmsil edən Qadir Qədirzadənin elmin inkişafı sahəsindəki xidmətləri yüksək qiymətləndirilmiş, 2009-cu ildə o, Azərbaycan Respublikasının "Tərəqqi" medalı ilə təltif olunmuşdur. Qadir Qədirzadənin "Dünya və insan: başlanğıcın sonu, sonun başlanğıcı" kitabı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin mükafatına layiq görülmüşdür.

Ömrünü elmin inkişafına həsr edən fədakar alim, ziyalı və gözəl insan Qadir Qədirzadənin xatirəsi unudulmayacaqdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti

AMEA-nın Naxçıvan Bölməsi

İman və mənəviyyat adamı

İnsanın ömrü onun əməlləri qədərdir. Alnıaçıq, başı dik yaşamaq və yaşadığın ömrə sığdırdığın xeyirxah işlər insana ikinci ömür, ikinci həyat qazandırır.

Görkəmli etnoqraf alim, dəyərli ziyalı, gözəl insan Hacı Qadir Qədirzadə də özünə sağlığında abidə ucaldan insan kimi ürəklərdə həmişə yaşayacaq.

O, 1948-ci ilin gözəl bir yaz günü – mayın 20-də Babək rayonunun Cəhri kəndində zəhmətkeş ailəsində anadan olmuşdu. Düz 70 il sonra – martın 8-də isə aramızdan ayrıldı...

Uşaqkən kəndimizin mərkəzində, məktəblərimizdə tez-tez rastlaşdığımız bu dəyərli insan Cəhrinin sayılıb-seçilən, yolgöstərən görkəmli ziyalılarından biri idi. Şəxsiyyəti ilə əqidəsi bir-birini tamamlayan, olduğu kimi görünən, göründüyü kimi olan Qadir müəllim həm də bir iman və mənəviyyat adamı, milli vətənpərvərlik mücəssəməsi idi...

1966-cı ildə Cəhri kənd orta məktəbini bitirmiş, 1967-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun Naxçıvan filialının (indiki Naxçıvan Dövlət Universiteti) tarix ixtisasına qəbul olmuş, 1971-ci ildə oranı fərqlənmə diplomu ilə bitirib Cəhri kənd orta məktəbində müəllim işləmişdir. 1975-2018-ci illərdə AMEA Naxçıvan Bölməsində müxtəlif vəzifələrdə çalışaraq Azərbaycan elminə bir-birindən dəyərli töhfələr vermişdir. Bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktor müavini kimi də səmərəli fəaliyyət göstərmişdir.

2004-cü ildə "Ailə və məişətlə bağlı adətlər, inamlar, etnogenetik əlaqələr" mövzusunda doktorluq dissertasiyası müdafiə edib tarix elmləri doktoru elmi dərəcəsi alan Qadir müəllim 2007-ci ildə AMEA-nın müxbir üzvü seçilmiş, elmdə əldə etdiyi yüksək nailiyyətlərə görə 2009-cu ildə ölkə Prezidentinin Sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

400-ə yaxın elmi, elmi-kütləvi məqalə və 22 kitabın müəllifi olan Qadir Qədirzadənin tədqiqatlarında qədim diyarımız Naxçıvanın tarixi və etnoqrafiyasının tədqiqi xüsusi yer tutur. Nuh Peyğəmbər, Dünya tufanı və Naxçıvan məsələsi, Naxçıvanda şəhərsalma mədəniyyəti, İslamaqədərki milli adət və ənənələr, türk xalqlarının tarixi və folkloru məhz Qadir müəllimin araşdırma və tədqiqatlarında üstün mövqedə dayanır. O, bu mövzuda dünyanın müxtəlif qitələrində keçirilən beynəlxalq səviyyəli elmi konfrans və simpoziumlarda Azərbaycanı layiqincə təmsil etmişdir.

Təsadüfi deyil ki, Qadir müəllimin müəllifi olduğu "Dünya və insan: başlanğıcın sonu, sonun başlanğıcı" kitabı ötən il Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi mükafatına layiq görülmüş, ali məktəblərə dərslik kimi tövsiyə olunmuşdur.

Naxçıvanı dərin məhəbbətlə sevməsi, diyarımızın tarix və mədəni irsinin tədqiqi istiqamətində yorulmaq bilmədən çalışması onun həm də böyük vətənpərvər bir alim olduğunun təsdiqidir. Heç bir ictimai məsələyə biganə qalmayan, adi cansız daşa, saxsı parçasına belə, tarixi fakt kimi yanaşan Qadir Qədirzadə həm də jurnalistlərin dostu idi. Naxçıvan televiziyasının (NTV), "TRT"nin, Aztv-nin, "Xəzər"in, "Şərq qapısı" qəzetinin arxivlərində onun iştirakı ilə hazırlanan yüzlərlə veriliş və film, məqalə vardır. Onların hər biri orijinal söz və fikrə, dərin fəlsəfi məzmuna, yüksək elmi dəyərə malik olmaları ilə seçilən zəngin və ensiklopedik nümunələrdir.

O təkcə mühüm tədqiqat və elmi işləri ilə deyil, həm də yetişdirdiyi yüzlərlə gənc alim və ziyalıların müəllimi kimi də həmişə xatırlanacaq.

Təbii ki, hər bir insanın dəyəri, qiyməti həm də onun yetişdirdiyi övladların xalq, cəmiyyət üçün faydası qədərdir. Ailəsində beş övlad böyüdüb onlara yüksək təhsil və tərbiyə verərək cəmiyyətə qazandıran Qadir müəllim həm də atalıq xoşbəxtliyinin səadətini dadan insanlardan idi...

Deyirlər ki, insan var evdən gedir, insan da var eldən. Ömrünün 70-ci ilində bizimlə vidalaşan Qadir Qədirzadə də evdən yox, eldən ayrılan şəxsiyyətlərdəndir. Çünki onun evi təkcə kəndimizin mərkəzindəki sakit, hüzurlu mənzili yox, həm də qarışqarış gəzib tədqiq etdiyi Naxçıvan torpağı, Naxçıvan abidələri, Naxçıvan mədəniyyəti, Naxçıvan təbiəti, Naxçıvanın inanc və etiqadlarıdır…

Qadir Qədirzadə kənddə doğulub böyüyən, amma dünya miqyasında böyük tədqiqatlar aparmağı bacaran bir alimlik nümunəsi, alimlik məktəbi də yaratmışdır.

Gözəl və işıqlı insanın xatirəsinə ehtiramla:

Sahil TAHİRLİ
jurnalist

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin 2008-ci il 7 aprel tarixli Sərəncamına əsasən hər il martın 10-u Azərbaycan Respublikasında Qızıl Aypara Günü kimi qeyd olunur.

Humanizm və xeyriyyəçilik prinsiplərinə əsaslanan fəaliyyət

Humanizm və xeyriyyəçilik anlayışlarının kökləri qədim dövrlərə gedib çıxır. Müasir dövrümüzdə bu anlayış özlüyündə daha geniş məna daşımaqla cəmiyyətin sosial rifahı naminə bütün təmənnasız könüllü fəaliyyət növlərini əhatə edir. Humanitar və xeyriyyəçilik dəyərlərini özündə təcəssüm etdirən Qızıl Aypara Cəmiyyəti 1920-ci il martın 10-da Azərbaycan Xalq Cümhuriyyətinin müdafiə naziri, general-leytenant Əliağa Şıxlinskinin təşəbbüsü ilə təsis edilmişdir. Lakin 1920-ci ilin aprelində Azərbaycanda sovet hökuməti qurulduqdan sonra Qızıl Aypara Cəmiyyətinin də fəaliyyəti dayandırılmışdır. 1923-cü ildə yenidən yaradılan qurum 1991-ci ilə kimi SSRİ Qırmızı Xaç və Qızıl Aypara Cəmiyyətinin tərkibində fəaliyyətini davam etdirmiş, özünəməxsus tarixi yol keçərək ölkəmizdə xeyirxah ideyaların həyata keçirilməsinə mühüm töhfələr vermişdir.

Ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra Qızıl Aypara Cəmiyyəti yeni inkişaf dövrünə qədəm qoydu və qurumun fəaliyyətində yeni mərhələ başlandı. 1994-cü ildə ölkəmizin çox çətin anlarında Qızıl Aypara Cəmiyyətinin humanizm, mərhəmət və xeyriyyəçilik məramlı təşkilat kimi tənha adamlara, xəstələrə, qaçqınlara və məcburi köçkünlərə, müharibə, təbii fəlakətlər və bədbəxt hadisələr zamanı zərərçəkənlərə, girov götürülən və əsir düşən adamlara tibbi, sosial, maddi yardım göstərməklə əhəmiyyətli fəaliyyətlə məşğul olmasını, beynəlxalq humanitar təşkilatlarla sıx əlaqədə işləməsini və fəaliyyətinin normativ tənzimlənməsinin təkmilləşdirilməsi zərurətini nəzərə alaraq cəmiyyətin milli bir qurum kimi dövlət tərəfindən tanınması istiqamətində mühüm addımlar atıldı. 1995-ci il noyabrın 27-də Azərbaycan Qızıl Aypara Cəmiyyəti Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının tam bərabərhüquqlu və daimi üzvü qəbul edildi.

Qeyri-hökumət təşkilatı olan Azərbaycan Qızıl Aypara Cəmiyyəti dövlətin qayğısı əhatəsində fəaliyyət göstərir. 2007-ci ildə "Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında" Qanunun qəbulu Cəmiyyətin statusunun, hüquqlarının və fəaliyyət istiqamətlərinin, dövlət və yerli özünüidarə orqanları ilə qarşılıqlı münasibətlərinin hüquqi əsaslarının müəyyən edilməsi baxımından mühüm addım oldu.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2004-cü il 31 yanvar tarixli "Azərbaycan Qızıl Aypara Cəmiyyətinə dövlət qayğısının artırılması haqqında", 2007-ci il 22 may tarixli "Azərbaycan Qızıl Aypara Cəmiyyətində çalışan işçilərin əməkhaqlarının dövlət büdcəsindən maliyyələşdirilməsi haqqında" sərəncamları cəmiyyətin fəaliyyətinə dövlət səviyyəsində göstərilən diqqət və qayğının bariz nümunəsidir. Sərəncamlara əsasən cəmiyyətin maddi-texniki bazası yaxşılaşdırılmış, icra hakimiyyəti və özünüidarəetmə orqanlarının cəmiyyətin yerli təşkilatlarının sosial, tibbi sağlamlıq və xeyriyyəçilik proqramlarının həyata keçirilməsinə köməklik etməsi təmin olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsi də dövlətin qayğısından lazımınca bəhrələnir. 2008-ci il yanvarın 10-da komitə yeni inzibati bina ilə təmin olunmuş, maddi-texniki baza yaxşılaşdırılmış, avtomobillə təmin edilmiş, əməkdaşların səmərəli fəaliyyətinə hərtərəfli şərait yaradılmışdır. Son illər kollektivin sosial təminatının gücləndirilməsi istiqamətində də ardıcıl tədbirlər görülmüş, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamlarına əsasən Qızıl Aypara Komitəsi işçilərinin əməkhaqları artırılmışdır.

Əhali arasında fövqəladə hallarla bağlı maarifləndirici tədbirlərin təşkili də diqqətdə saxlanılır. 2017-ci ildə komitəyə fövqəladə hallara hazırlıq çərçivəsində 30 çadır verilmişdir.

Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsinin kollektivi bundan sonra da üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək, humanizm və xeyirxahlıq ideyalarının qoruyucusu və təşkilatçısı kimi fəaliyyətini artıracaqdır.

Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsi

"Nuh yurdu" intellektual oyunu keçirilib

Gənclər Mərkəzində Naxçıvan şəhərinin 2018-ci ildə Azərbaycanın Gənclər Paytaxtı seçilməsi və 8 Mart Beynəlxalq Qadınlar Günü ilə əlaqədar Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan qız tələbələr arasında "Nuh yurdu" intellektual oyunu keçirilib.



Oyunun keçirilməsinin məqsədi gənclərin intellektual səviyyəsinin, dünyagörüşünün, zehni inkişafının stimullaşdırılması, onlar arasında bilik və elmin nüfuzunun artırılması, eləcə də asudə vaxtlarının səmərəli təşkil edilməsidir.

Oyunda muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin qızlardan ibarət komandaları iştirak edib. Oyun 2 yarımfinal və final mərhələsindən ibarət olub. Hər mərhələdə ən yüksək xal toplayaraq birinci və ikinci yerlərə çıxmış komandalar finala vəsiqə qazanıblar. Belə ki, "Savalan", "Zirvə", "Vətən" və "Qarabağ" komandaları finalda mübarizə aparıblar.

Sonda Naxçıvan Dövlət Texniki Kollecinin "Zirvə" komandası birinci, "Naxçıvan" Universitetinin "Vətən" komandası ikinci, Naxçıvan Tibb Kollecinin "Qarabağ" komandası isə üçüncü olub. Qalib gələn komandalara, eyni zamanda bütün digər iştirakçılara gül dəstələri, diplom, fəxri fərmanlar və oxunması zəruri olan kitablar təqdim edilib.

İntellektual oyun Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyi və "Gənclərin İntellektual İnkişaf Mərkəzi" İctimai Birliyinin təşkilatçılığı ilə keçirilib.

Ceyhun MƏMMƏDOV

CONİFA-nın Asiya üzrə prezidenti muxtar respublikada səfərdə olub

Muxtar Respublikaların Müstəqil Futbol Federasiyaları Assosiasiyasının (CONİFA) Asiya üzrə prezidenti Filip Jens Jockel Naxçıvan Muxtar Respublikasında səfərdə olub. Qonaq səfər çərçivəsində bir sıra görüşlər keçirib, Naxçıvan şəhərinin tarixi və görməli yerlərini gəzib.

Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində qonağa ulu öndərin həyat və fəaliyyəti barədə müfəssəl məlumat verilib.

Sonra Filip Jens Jockel "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksini ziyarət edib. Burada Naxçıvanın qədimliyini özündə əks etdirən xalçalar, Naxçıvan ərazisində yaşamış qədim insanların istifadə etdikləri məişət əşyaları, eksponatlar haqqında ətraflı məlumat verilib.

Vurğulanıb ki, burada aparılan bərpa işləri qədim tarixə malik Naxçıvan Muxtar Respublikasında tarixi irsə yüksək qiymət verildiyini göstərir. Qonaq həmçinin Nuh Peyğəmbərin məzarüstü türbəsində də olub.

Filip Jens Jockel müsahibəsində bildirib ki, Naxçıvana ilk dəfədir, gəlib. O deyib: "Burada olduğum müddətdə bir sıra görüşlər keçirdim, qədim Naxçıvan şəhərini gəzdim, tarixi abidələrlə yaxından tanış oldum. Şəhərin təmizliyi və gözəlliyi məni valeh etdi. Bizim təşkilatın 46 üzvü var və arzumuz budur ki, Naxçıvan Muxtar Respublikasını da təşkilata üzv qəbul edək. Bu məsələni müzakirə etdik. Çünki Naxçıvanda idmanın hər növü inkişaf edib, müasir komplekslər fəaliyyət göstərir".

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2013-cü il 1 mart tarixli Sərəncamına əsasən hər il martın 10-u ölkəmizdə "Milli Teatr Günü" kimi qeyd edilir.

10 mart Milli Teatr Günüdür

Zəngin mədəni irsimizi yaşadan teatr sənətimiz şərəfli inkişaf yolu keçmişdir

Qobustan, Gəmiqaya rəsmlərinə əsaslanaraq tədqiqatçılar qeyd edirlər ki, Azərbaycan ərazisində teatr ənənələri qədim dövrlərə gedib çıxır. Xalqımızın yaratdığı xalq oyunları, meydan və qaravəlli tamaşaları, bayram məzhəkələri teatr sənətinin ilk nümunələridir. Əsrlərlə tarixi olan "Sayaçı", "Novruz", "Lal oyunu", "Güdül", "Kosa-kosa", "Maral oyunu", "Kilimarası", "Gəsvəs" və başqa mərasim, etno-mədəni oyunlarda, tamaşalarda səhnə sənətimizin ilk elementlərini görürük.

1873-cü ilin martında M.F.Axundzadənin "Lənkəran xanının vəziri" tamaşası ilə əsası qoyulmuş Azərbaycan peşəkar teatrı qarşıya çıxan çətinlikləri dəf edərək zəngin və şərəfli inkişaf yolu keçmişdir. Dövrünün böyük ziyalıları olan Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov və Əsgərağa Adıgözəlovun bu sahədəki fədakarlığı qısa zamanda Azərbaycanda teatr hərəkatının yaranmasına səbəb olmuşdur. 1883-cü il mayın 11-də Naxçıvanda dövrünün mütərəqqi ziyalısı Hacı Nəcəf Zeynalovun Naxçıvanın məşhur "Zaviyə" məhəlləsindəki evində Mirzə Fətəli Axundzadənin "Müsyö Jordan və Dərviş Məstəli şah" komediyası səhnəyə qoyulmuş və bununla da, Naxçıvan teatrının əsası qoyulmuşdur.

Naxçıvan teatrı yarandığı dövrdən Azərbaycan teatr sənətinin qüdrətli nümayəndələri ilə əlaqələr saxlamış, öz həmkarlarının mənəvi dəstəyini daim hiss etmişdir. Eynəli bəy Sultanov, Cəlil Məmmədquluzadə, Məhəmmədtağı Sidqi və başqa görkəmli ziyalılarımız teatrın inkişafı sahəsində əsl fədakarlıq göstərmişlər. Naxçıvan teatrının yarandığı illərdə bu sənət ocağının təşəkkülü üçün Bakıdan Naxçıvana gələn qüdrətli sənətkarların Naxçıvan teatrının aktyorları ilə birlikdə tamaşalar göstərməsi, sənət dostlarına mənəvi dəstək olması teatrımızın peşəkarlıq səviyyəsini artırmışdır. Bu əməl və məfkurə dostlarının yaradıcılıq əlaqələri Naxçıvan teatrında dərin mündəricəli və xalqın maariflənməsi, mənəvi oyanışı üçün daha gözəl əsərlərin tamaşaya qoyulmasına təsir göstərmişdir.

Teatra, sənət adamlarına böyük qayğı ilə yanaşan, onlara, sözün əsl mənasında, hamilik edən ümummilli lider Heydər Əliyevin səyi və köməyi nəticəsində ötən əsrin 70-ci illərində milli teatr sənətimiz sürətli inkişaf yoluna qədəm qoymuşdur. Ulu öndər xalqımızın zəngin yaradıcılıq ənənələrinə malik olan teatr sənətinə yüksək qiymət verərək demişdir: ***"Xalqı həmişə mənəviyyat birləşdirmişdir. Çünki başqa əsaslara nisbətən mənəvi əsaslar daha güclüdür. Bunlar xalqa daim sənət və xüsusən incəsənət vasitəsilə aşılanmışdır. Ədəbiyyatın insanlara böyük təsiri vardır. Ancaq bir var ki, insan hər hansı bir əsəri özü oxusun, bir də var ki, onu canlı olaraq səhnədə görsün. Ona görə də teatrın həyatımızda rolu böyükdür. Teatr müqəddəs yerdir, tərbiyə ocağıdır, orada çalışanlar fədakardırlar".***

Böyük dövlət xadimi Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi müstəqillik illərində milli teatrımız əsl inkişaf və intibaha qovuşmuş, maddi-texniki bazası gücləndirilmiş, peşəkar aktyor və rejissor kollektivi formalaşmışdır. Bu dövrdən başlayaraq teatrlara diqqət və qayğı artırılmış, yazıçı, aktyor və rejissorların yaradıcılıq şəraitlərinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilmiş, onların əməyi qiymətləndirilmişdir. Teatr kollektivlərinin əməkhaqları artırılmış, aktyorların, rejissorların, dramaturqların yubileyləri geniş qeyd edilmiş, Azərbaycan teatrının beynəlxalq əlaqələri genişlənmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də teatrlara diqqət və qayğını artırmışdır. Son illər bu sahədə mühüm islahatlar həyata keçirilmiş, teatr binaları yenidən qurulmuşdur. 2006-cı ildə qəbul olunmuş "Teatr və teatr fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu, ölkə başçısının "Azərbaycan teatr sənətinin inkişaf etdirilməsi haqqında" 2007-ci il 19 fevral tarixli Sərəncamı və 2009-cu ildə təsdiq edilmiş "Azərbaycan teatrı 2009-2019-cu illərdə Dövlət Proqramı" milli teatrımızın maddi-texniki bazasının möhkəmləndirilməsi, kollektivlərin yaradıcılıq potensialının inkişaf etdirilməsi sahəsində mühüm rol oynamışdır.

Naxçıvan Muxtar Respublikasında da teatrların fəaliyyətinə hərtərəfli qayğı göstərilir. Son illər muxtar respublikada teatrların maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmiş, teatr binaları yenidən qurulmuş və ya əsaslı təmir olunaraq istifadəyə verilmişdir. Qədim diyarımızda fəaliyyət göstərən C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı, M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı, Naxçıvan Dövlət Uşaq Teatrı, 5 xalq teatrı, Naxçıvan Dövlət Universitetinin Tələbə Teatr Studiyası tamaşaçıların mənəvi və estetik zövqünün formalaşmasında, asudə vaxtlarının mənalı təşkilində əhəmiyyətli rol oynayır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Naxçıvan teatrı fəaliyyət göstərdiyi bütün dövrlərdə mütərəqqi ideyaları dəstəkləmiş, günün aktual məsələlərinə nüfuz etmiş, xalqın milli oyanışına çalışmışdır".***

Müstəqillik illərində Naxçıvan Dövlət Musiqili Dram Teatrının yaradıcılıq axtarışları, qastrol səfərləri genişlənmiş, kollektiv milli dəyərlərimizin peşəkar təbliğatçısına çevrilmişdir. Naxçıvan teatrı Türkiyə Respublikasının Ankara, İstanbul, Bursa, Trabzon, Qars, Ərzurum, İqdır, Dənizli, Tarsus, İran İslam Respublikasının Təbriz, Maku və başqa şəhərlərində qastrol səfərlərində olmuş, göstərdiyi tamaşalarla dost və qonşu ölkələrin teatrsevərlərinin rəğbətini qazanmışdır. Naxçıvan teatrının Bakıda və Azərbaycanın digər rayonlarında göstərdiyi tamaşalar da maraqla qarşılanmış, istedadlı aktyorlarımız geniş tamaşaçı sevgisi qazanmışlar. Teatrımız repertuar zənginliyini daim diqqət mərkəzində saxlayır, klassik və çağdaş dramaturgiyamızın dəyərli nümunələrini, dünya klassiklərinin əsərlərini səhnəyə qoyur.

Bu il yaradılmasının 135 illiyi tamam olan Naxçıvan Dövlət Musiqili Dram Teatrının müstəqillik illərində hazırladığı tamaşalar üslub, struktur və janr müxtəlifliyi ilə seçilir. "Atabəylər", "Pompeyin Qafqaza yürüşü", "Şeyx Sənan", "İblis", "Hökmdar və qızı", "Nadir şah", "Mirzə Cəlil taleyi", "Ölülər", "Ağa Məhəmməd şah Qacar", "Əlincə qalası", "Koroğlunun Çənlibelə qayıdışı", "Ah Paris, Paris!..", "Arılar arasında" və "Göy quş" kimi üslub, struktur, janr müxtəlifliyi ilə seçilən tamaşalar teatrın yaradıcılıq axtarışlarının nəticəsidir.

Muxtar respublikamızda yaradılan ikinci teatr kimi M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı da yüksək qayğı ilə əhatə olunmuşdur. 2004-cü ildə müasir bina ilə təmin olunan teatrın Türkiyəyə, Tacikistana və İrana səfərləri beynəlxalq mədəni əlaqələrin qurulmasında əhəmiyyətli rol oynamışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 4 oktyabr tarixli Sərəncamı ilə yaradılan Naxçıvan Dövlət Uşaq Teatrı isə müxtəlif illərdə hazırladığı tamaşalarla balacaların qəlbinə yol tapmağı bacarmışdır.

Bu gün muxtar respublikanın şəhər və rayonlarında xalq teatrları da uğurla fəaliyyət göstərir. Son illərdə xalq teatrlarının "Kamança", "Ac həriflər", "Xəcalət", "Şöhrət ardınca", "Ezop", "Ər və arvad", "Unuda bilmirəm", "Qəşəmin yuxusu", "Dələduz", "Ev tərbiyəsinin bir şəkli", "Bəxtsiz cavan", "Tiflis səfəri" kimi tamaşaları ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır.

Müstəqillik illərində Naxçıvan teatrının tədqiqi ilə bağlı bir sıra uğurlu işlər də həyata keçirilmiş, monoqrafiya və kitablar nəşr olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə nəşr olunan "Naxçıvan teatrının salnaməsi" kitabı yüksək qiymətə layiqdir. Kitabda Naxçıvan teatrı ilə bağlı çoxsaylı mühüm elmi əhəmiyyətə malik sənədlər, fotoşəkillər və digər məlumatlar ilk dəfə olaraq oxuculara təqdim edilmişdir.

Muxtar respublikamızda gənc aktyor nəslinin yetişməsi üçün də ardıcıl tədbirlər görülür. Naxçıvan Dövlət Universitetində aktyorluq sənəti ixtisası yaradılmışdır. Bunun nəticəsidir ki, hər il istər dövlət, istərsə də xalq teatrlarının heyətinə onlarla gənc qatılır, yaratdıqları obrazlarla teatrsevərlərin qəlbinə yol tapır.

Muxtar respublikada teatr sənətində fərqlənənlərin əməyi də dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Yaradıcı insanlar Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına, orden və medallara, Prezident təqaüdü və mükafatına layiq görülmüşlər.

Teatrlarımız həmişə bütün tarixi proseslərdə milli düşüncənin, cəmiyyət həyatının yeniləşməsinə və inkişafına xidmət etmişdir. Xalqımızın mənəvi təkamülündə, mədəni səviyyəsinin yüksəldilməsində, böyük idealların xalqa çatdırılmasında, dövlət müstəqilliyimizin möhkəmləndirilməsində teatrlarımızın özünəməxsus xidmətləri vardır.

Naxçıvan teatrı bu gün də öz mütərəqqi ənənələrinə sadiq qalaraq fəaliyyətini davam etdirir.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti

Naxçıvan Dövlət Filarmoniyasına alınmış yeni avadanlıqların təqdimatı olub

Martın 9-da Naxçıvan Dövlət Filarmoniyası üçün alınmış yeni səs avadanlıqlarının təqdimatı olub.

Təqdimat mərasimində Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə musiqi kollektivlərinə, folklor ansambllarına geyim dəstlərinin, paltarlarının, musiqi alətlərinin, musiqi texnikasının təqdimat mərasimlərinin keçirilməsi ənənəyə çevrilib. Naxçıvan Dövlət Filarmoniyasına son illər ərzində xarici ölkə istehsalı olan müxtəlif Avropa musiqi alətləri və milli musiqi alətləri verilib, musiqi kollektivləri və solistləri geyim dəstləri ilə təmin ediliblər.

Diqqətə çatdırılıb ki, Naxçıvan Dövlət Filarmoniyasına verilən 18 adda, müxtəlif sayda səs avadanlığı və texnikası ABŞ istehsalı olub son texnologiyaya əsaslanır. Bunların içərisində 4 hissəli səsgücləndirici mikşer, əlavə səs gücləndirici vasitə, səs dalğalarındakı tezlikləri tənzimləmək üçün avadanlıq, aşağı səs frekanslarını dəqiq çatdırmaq cihazı, müxtəlif növ simli və simsiz mikrofonlar, səs gücləndirici avadanlıqlar, müxtəlifölçülü və markalı kabellər, başqa avadanlıqlar da var.

Nazir çıxışının sonunda göstərilən diqqət və qayğıya görə bütün mədəniyyət işçiləri adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığını bildirib.

Tədbirdə Naxçıvan Dövlət Filarmoniyasının direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Səməd Əsgərov, Naxçıvan Dövlət Filarmoniyasının Kamera Orkestrinin bədii rəhbəri və dirijoru, Azərbaycan Respublikasının Xalq artisti Çingiz Axundov, Xalq çalğı alətləri orkestrinin bədii rəhbəri və dirijoru, Azərbaycan Respublikasının Əməkdar artisti Elman Əliyev çıxış edərək bildiriblər ki, filarmoniyaya təqdim olunan səs avadanlıqları açıq havada və qapalı konsert salonunda musiqinin tamaşaçıya keyfiyyətlə, həm də səsləndiyi kimi çatdırılmasına kömək edəcəkdir. Bu avadanlıqlar həm də açıq hava konsertlərində musiqi texnikasının asanlıqla quraşdırılmasına imkan verəcəkdir.

Əli RZAYEV

Futbol üzrə muxtar respublika çempionatında ikinci dövrəyə start verilib

Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri ilə razılaşdırılmış təqvim planına uyğun olaraq futbol üzrə XVI muxtar respublika çempionatında ikinci dövrənin ilk turunun oyunları keçirilib.

Turnir cədvəlinin lideri "Araz-Naxçıvan" ikinci dövrəyə də qələbə ilə başlayıb. Belə ki, Naxçıvan şəhər təmsilçisi doğma arenada Şərurun "Arpaçay" komandasını qəbul edib və meydanı 3:0 hesablı qələbə ilə tərk edib. İlk dövrədə baxımlı oyunu ilə seçilən Culfanın "Əlincə" komandası ikinci dövrədə də uğurlu estafeti davam etdirir. Bu dəfə onlar "Babək" komandasını büdrətməyə nail olublar. Bu qələbə culfalıları turnir cədvəlində ikinci edib.

Ordubadın "Dübəndi" komandası isə turnir cədvəlindəki mövqeyini yaxşılaşdırıb. Belə ki, səfərdə "Batabat" komandasının qonağı olan ordubadlılar meydanı 4:2 hesablı qələbə ilə tərk ediblər. Eyni uğura "Sədərək" komandası da imza atıb. Doğma arenada Kəngərlinin eyniadlı komandasını 7:2 hesabı ilə məğlub edən Sədərək təmsilçisi aktivinə daha üç xal yazdırıb.

Naxçıvan Muxtar Respublika çempionatı

9-cu turun oyunları

"Əlincə" (Culfa)-"Babək" (Babək) – 2:0

"Sədərək" (Sədərək)-"Kəngərli" (Kəngərli) – 7:2

"Batabat" (Şahbuz)-"Dübəndi" (Ordubad) – 2:4

"Araz-Naxçıvan" (Naxçıvan)-"Arpaçay" (Şərur) – 3:0

S	Komandalar	O	Q	H	M	T/F	X
1.	Araz-Naxçıvan	9	9	0	0	44-4	27
2.	Əlincə	9	5	3	1	19-12	18
3.	NDU	8	5	1	2	26-16	16
4.	Dübəndi	9	4	1	4	17-19	13
5.	Babək	9	3	2	4	12-15	11
6.	Sədərək	9	3	1	5	22-28	10
7.	Kəngərli	9	2	1	6	18-33	7
8.	Arpaçay	9	2	1	6	14-28	7
9.	Batabat	9	2	0	7	18-34	6

Qeyd: "S" – sıra, "O" – oyun, "Q" – qələbə, "H" – heç-heçə, "M" – məğlubiyyət, "T/F" – top fərqi, "X" – xal.

Ceyhun MƏMMƏDOV

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 210